# ƏDƏBİYYATŞÜNASLIĞIMIZIN AĞIR İTKİSİ

## *("Bəxtiyar Məmmədzadə - 75" silsiləsindən)*

Dünya yaranandan olumla ölüm arasındakı savaşlara şahidlik edir. İnsan dünyaya gəlir, yaşayır, sınanır və dünyadan köçür. Bu bir həyat fəlsəfəsidir. Gələn getməlidir. Amma getmək var ki, əbədiyyət qazanmaq deməkdir. Yaşadığımız ömürdə çox ölənlər gördü, amma az da olsa, əbədiyyət qazananlar da gördük. Əməllərilə əbədiyyət qazanan insanklardan biri də Bakı Dövlət Universitetinin müəllimi, Bakı Asiya Universitetinin şərqşünaslıq və filologiya fakültələrinin dekanı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Bəxtiyar Məmmədzadədir (1947-2010). Filologiya elmləri doktoru, professor Abdulla Abasov "Əsl alim, gözəl insan və ustad müəllim" adlı xatirəsində həyarın qəribəliyindən, bütün ömürlərin, talelərin, xatirələrin həmin bu qəribəliyin içində olduğundan, sevinclə kədərin təzadından, ölümün rütbədən, elmi dərəcədən, heç bir sosial amildən asılı olmadığını, yalnız Allahın yazdığı qanunlar ilə idarə olunduğunu vurğulayaraq yazır: "Ölümün bir ucu nisgil, bir ucu ahü zar ilə bağlıdırsa, digər tərəfi sağ, diri insanlara həyatda müvəqqəti olduğunu bir daha xatırlatmaq, alicənab, ağayana, humanist və xeyirxah olmaq, insafı, haqqı, ədaləti əldən verməmək müsajidir. Bu da mahiyyət etibarilə ikinci ömür yaşamaq deməkdir. Bəxtiyar Məmmədzadə kimi".

Bəxtiyar müəllimin gedişi hamımız üçün böyük itki oldu. Onun haqqında yazılan xatirələrdən görünür ki, Bəxtiyar Məmmədzadə çoxlarının yaddaşında misilsiz insan kimi, ədəbiyyatşanaslığımızın zirvələrini fəth edən alim kimi və ürəkləri fəth edən müəllim kimi qalmışdır. Başqa cür də ola bilməzdi. Akademik Vasim Məmmədəliyev "Gözəl alim, mehriban dost" adlı xatirəsində yazır: "Bəxtiyar bizi çox tez tərk etdi. Onun ölümü bizlər üçün çox ağır bir itkidir. Bəxtiyarın şəxsində gözəl bir alimi, mehriban dostu, böyük bir ziyalını itirdik".

Filologiya elmləri doktoru, professor Kamil Vəli "Bir vicdan rəmzi də dünyadan getdi" adlı məqaləsində Bəxtiyar müəllimin tələbəlik illərindəki xeyirxahlıqları haqqında yeni məlumatlar alırıq. Kamil Vəli yazısında tələbəlik dostunun ölüm xəbərini eşitdiyini, İstanbulun sakit küçələrində gizlin ağladığını, ruhuna dualar oxuduğunu, bir gecə onu yuxuda gördüyünü yazır və yuxusunu danışır, daha sonra xatirələrini oxucu ilə bölüşərək yazır: "Bəxtiyarın bir neçə qrup yoldaşı üçün hansı cəfalar çəkdiyinin də uzaqdan-uzağa şahidiyəm. bəxtiyar onlar üçün əlindən gələn hər şeyi edirdi. Amma söhbət onda deyil ki, Bəxtiyar dostsevən və ya xetirxah adam idi. Mən onu vurğulamaq istəmirəm. Bəxtiyarın bəlkə xoşbəxtliyi o dostlarının yaşaması, az-çox uğur qazanması, ailə qurmaları, oğul-uşaq sahibi olmaları idi. Bəxtiyar sanki öz dostlarını deyil, doğma övladlarını oxudurdu, yazılarının işıq üzü görməsi üçün gecə-gündüz can qoyurdu".

Bəli, bizim sevimli Bəxtiyar müəllim bir ömür başqaları üçün yaşayan insan, bacardığını heç kimdən əsirgəməyən dost, öyrəndiyini başqalarına öyrətməyə çalışan müəllim kimki qalıb xatirələrdə. Düşünürəm. Xəyal məni tələbəlik illərinə aparır. Bir-bir bu sözlərin sübutu olan anlar xatırlayıram. Bəxtiyar müəllimin işıqlı siması gözüm önündə canlanır. Zahirən olduqca sadə görünən bu insanın içində necə böyük dünya vardı. Həm gözəl insan olmaq, həm də bilikli alim olmaq çətin məsələdir. Çox vaxt biri olanda, digəri olmur. Amma Bəxtiyar Mmmədzadə Allahın seçilmiş bəndələrindən idi. Çoxundan fərqli olaraq, Allah ona çox şey vermişdi. Filologiya elmləri namizədi, dosent Məhərrəm Hüseynov "Nurlu şəxsiyyət, bənzərsiz insan" adlı xatirəsini belə bitirir: "Bəxtiyarın dünyasını vaxtsız dəyişməsi tələbə dostlarının hər birinə ən yaxın, ən doğma insanın itkisi kimi təsir etdi. Onun aramızdan qəflətən getməsi hamımızı sarsıtdı, göynətdi. Bəxtiyar misilsiz bir dost-qardaş kimi qəlbimizdə abidələşdi, onu sevən ürəyimizda özünün sədaqət, etibar, səmimiyyət heykəlini ucaltdı. Bəxtiyar adı əsl alim simvoluna, yüksək bəşəri dəyərləri, xeyirxah əməlləri ilə fövqəlbəşərilik rəmzinə çevrildi".

Hamı Bəxtiyar müəllimin "vaxtsız" getdiyini qeyd edir. Əslində isə heç bir insan vaxtsız getmir, hamı Allahın yazdığı ömrü yaşayır, bu dünyadakı missiyasını bitirib, o dünyadakı missiyasını yerinə yetirmək üçün dünyasını dəyişir. Sadəcə sevimli in-



sanlardan doymadığımız üçün "vaxtsız getdi" deyirik. Bəxtiyar müəllim çox yaşasaydı da, onun gedişi bizm üçün vaxtsız olacaqdı. Təsadüfi deyil ki, akademik Nizami Cəfərov "Alim... Müəllim... və İnsan" adlı yazısına belə başlayır: "Bəxtiyar Məmmədzadə elə insanlardan idi ki, dünyadan nə vaxt getsə, deyəcəkdilər ki, vaxtsız getdi. Hər şeydən əvvəl ona görə ki, böyük istedad sahibi, həqiqi elm adamı idi. İkincisi, sözün geniş mənasında insan adam idi; işinə məsuliyyətlə yanaşan, təvazökar, mənən-ruhən səliqəli, zəngin... zahirən laübali, dalğın, hətta laqeyd görünsə də, daxilən çox ciddi, sözündə etibarlı idi".

Bəxtiyar müəllim haqqında nə qədər danışsaq, onu nə bir insan kimi, nə müəllim kimi, nə alim kimi tam dəyərləndirmək mümkün deyil. Onun dəyərini Allah verib, onu seçilmişlərdən edib, insanlığı ilə, alimliyi ilə başqalarından fərqləndirib. Allah bizi faili-muxtar yaratsa da, seçim bizimdir. Allah bizi hidayət eləsə də, içimizdəki bilqüvvə şəklində olan yaxşılıqları və pislikləri üzə çıxarmağı öz öhdəmizə buraxmışdır. Bunu dərindən dərk edən Bəxtiyar müəllim də bütün ömrü boyu Allahın yazdığı qanunlarla ömür sürdü. Filologiya elmləri namizədi Ağahəsən Bədəlzadə "Bir ibrətli və nisgilli xatirə" adlı yazısında dostunun demək olar ki, bütün ömrünə güzgü tutur, onu hər cəhətdən xarakterizə edir, qəribə adam olduğunu, ən çətin vəziyyətdə belə təmkinini itirmədiyini, hər şeyin yaxşı olacağına inandığını vurğulayaraq yazır: "O, ölümə də belə təmkinlə, müdrikliklə hazırlaşmışdı. Bəli, sözün həqiqi mənasında hazır idi. Bəlkə elə buna görə də o, ölümü vahiməyə saldı. Ölümdən ikicə gün qabaq ona zəng elədim, halını soruşdum. Yenə də "hər şey yaxşıdır. Sən özündən muğayat ol!" dedi. İki gündən sonra isə mən onu ölüm yatağında gördüm!".

Yadımdadır o ağır günlər. Xatırladıqca göz yaşlarımı saxlaya bilmirəm. Bəxtiyar müəllimi xəstəxanadan evə gətirmişdilər. Elşad zəng vurub xəbər verdi. Gecə idi, institutda idim, məqalə yazırdım, deyə qalmışdım. Dedim ki, sabah gəlib dəyərəm. Amma birdən içimə nəsə xoşagəlməz bir hiss doldu. Qərarsızlaşdım. Elə bil bir qüvvə mənə deyirdi ki, bu gün get. Zəng vurdum Elşada, görüşdük, getdim. Heç yaraşmırdı ona belə uzanıb qalmaq. Bəlkə məni eşidirdi, nəsə eləmək istəyirdik, amma gec idi...

Səhərisi gün Xaqani məclisinin yığıncağında mənə nərgiz gülü verdilər. Tutuldum, nərgiz gülü Bəxtiyar müəllimin sevdiyi gül idi. Fikir məni apardı. Çox soruşdular, dinmədim. Saat 3-də Elşad zəng vurdu ki, artıq Bəxtiyar müəllim yoxdur. Gülləri götürüb getdim. Sanki onunçün vermişlər kimi sevdiyi gülləri nəşinin üstünə qoydum. Bəxtiyar müəllim fevralın 26-da dünyaya əlvida dedi. O gün həm Xocalı soyqırımı günü idi, həm də mübarək cümə günü idi. Qismətə bax, həyatı kimi, ölümü də qeyriadi. Filologiya elmləri doktoru, professor Cəlil Nağıyev "Özəl insan, böyük ziyalı - Bəxtiyar Məmmədzadə" adlı xatirəsini belə bitirir: "Bəxtiyar sözün əsl mənasında halal bir insan idi. İnanclı, imanlı, saf qəlbli, böyük ürəkli dost, qardaş və ata idi. Onun ölümünə hələ də heç kim inanmaq istəmir: nə dostları, nə tələbələri, nə də ki, övladları. Amma bu bir həqiqətdir, artıq Bəxtiyar Məmmədzadə cismən aramızda yoxdur. Onun əziz xatirəsi isə tələbələrinin, dostlarının, övladlarının və bütün yaxınlarının qəlbində daim yaşayacaq".

Bir dəfə universitetin qarşısında söhbət edirdik. Çox kədərli göründü mənə, səbəbini soruşdum. Sözü ora-bura çəkdi, gördü əl çəkmirəm, nəhayət dedi: "...Mən övladlarım üçün ev-eşik düzəldə bilmədim. Ömrüm başa gəlir, amma onlar üçün heç nə edə bilmədim". Dedim: "Bu onlara bəs deyilmi ki, Bəxtiyar müəllimin oğludurlar?" sözümdən bir az elə bil açıldı, amma sevincini tez də gizlətdi... Filologiya elmləri doktoru, professor Sənan İbrahimov "Bəxtiyar müəllimi xatırlayarkən..." adlı yazısında müəllimi və həmkarı haqqına söz açır, kafedraya girəndə, kafedra iclaslarında onun yerinin göründüyünü vurğulayaraq yazır: "Onun kafedramızda, aramızda yeri bir kamilliyin əlaməti idi. İndi o kamilliyi pozan amillər var... Həmin amillər iclaslarımızda Bəxtiyar müəllim tərəfindən deyilməyən sözlər, kafedramızda xoş əhval-ruhiyyə yaradan sözlərin olmamağıdır.

Bəxtiyar müəllimi itirəndən sonra kafedramızın atmosferində bir cansıxıcılıq yarandı. Hərə bir tərəfə çəkilib xısın-xısın göz yaşlarını sildi. Bizi yandıran səbəblərdən biri də o idi ki, səmimi dostumuzun xəstəliyi onu üzürdü, bizimsə əlimizdən heç nə gəlmirdi. Biz onun belə tez aramızdan getməyinə inanmırdıq. Hələ uzun illər onun şirin söhbətlərindən feyzyab olacağımızı düşünürdük. Ancaq olmadı...".

Bəxtiyar müəllimin ailəsilə əlaqəm olduğundan onların yaşantılarını bilirəm. Bütün ömrünü Bəxtiyar müəllimə olan sevgi ilə başa vuran, hər cür maddi çətinliklərə dözüb, Bəxtiyar müəllimin mənəvi aləmi ilə yaşayan, onunla daim fəxr edən Xumar xanımın da, ata itkisinin ağrı-acısıyla üz-üzə qalsalar da, ataları kimi təmkinlərini itirməyən Elçinin də, Arazın da, Elşadın da o zamankı vəziyyətləri indi bu sətirləri yazarkən də gözüm önündədir. Filologiya elmləri doktoru, professor Tofiq Müzəffəroğlu "Bəxtin sənə yar oldumu" adlı xatirəsini belə bitirir: "Bəxtiyar müəllim saf, təmiz, imanlı insan idi. tanıyanlar onun haqqında "kristal insandır" deyərdilər. nəhayətdə Hacı oldu - imanlı, əqidəli Hacı. Əzəldən haqq, ədalət yolçusu olan, yalana, ədalətsizliyə nifrət edən, ömrünü zəhmətlə keçirən, halal həyat sürən Bəxtiyar müəllimi vəzifə, var-dövlət maraqlandırmazdı. Onsuz da dövlətli adam idi; onun dövləti tanıyanlaların məhəbbəti, daxili sabitliyi və sakitliyi, mənəvi saflığı və bütövlüyü idi. Hər kəsə nəsib olmayan sərvətdir bu. Aramızdan vaxtsız getsə də, özündən sonra böyük sərvət qoydu: elmi əsərləri, tələbələri, gözəl övladları, ürəklərdə sonsuz və tükənməz məhəbbəti! Haqq yolu ilə gedib haqqa qovuşdu Bəxtiyarımız bizim. Allah qəni-qəni rəhmət eləsin!!!".

Bəxtiyar Məmmədzadə çox sadə bir həyat yaşadı. Ömrünü-gününü elmə verdi. Elmlər namizədi olsa da, akademiklərdən savadlı idi. Bəli, getdi. Ölüm onu əlimizdən aldı, apardı əbədiyyətə. Amma ürəklərdə də əbədi yeri qaldı. Bəxtiyar Məmmədzadə ölümüylə ölümü məşhurlaşdırdımı, ölümüylə ölümü öldürdümü, vaxtında getdi, vaxtsız getdi, bilmirəm. Onu bilirəm ki, Bəxtiyar müəllim mənimçün hələ də ölməyib. Axı, belə insan necə ölə bilər ki? Hər dəfə onlara gedəndə, oğlu Elşadla, gəlini Zeynəblə onun haqqında danışırıq. Ölü kimi yox, diri kimi danışırıq. Bəxtiyar müəllimin həyatında rolu olan xanımlardan biri də Elşadın həyat yoldaşı Zeynəb xanımdır. O, Bəxtiyar müəllimə gəlin deyil, qız olub.

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 7-ci səhifədə)*

Hər dəfə onlara gedəndə söz-söhbətimiz Bəxtiyar müəllimdən olur. Tələbəlik illərindən Bəxtiyar müəllimlə ilk tanışlığından sözə başlayan Zeynəb İbrahimova "İnsanlıq alimi" adlı yazısını belə bitirir: "Dünən Xumar xanımla sizin qəbrinizi ziyarətə gəlmişdik, Bəxtiyar müəllim!. Sizin xəyalınızla asta-asta söhbət etdim, dərdləşdim. Mənə elə gəldi ki, sakit bir əl təsəlliedici sığalla çiynimə toxundu, "Mən sizinləyəm, mən sizi tərk etməmişəm" səsləri qulağımda cingildədi.

Elə indicə oturub sizin yazılarınızı oxuyurdum. Nələrinsə izahını verdiyiniz həmin yazıları bir neçə dəfə oxuduqdan sonra görürəm ki, necə də sadə bir dillə hər şeyi izah etmisiz; çox dürüst, elmi, eyni zamanda sadə. Halbuki, ilk oxuduğum zaman mənə çox çətin görünürdülər. bunları yazmaq üçün nə qədər fikirləşmisiniz, necəı də dəqiq izah etmək qabiliyyətiniz var imiş. Mən sizə heyranam. Sizi çox, lap çox sevirəm, mənim gözəl atam, gözəl qaynatam və gözəl müəllimim! Allah sizə rəhmət etsin!".

Bəli, Azərbaycan ədəbiyyatşünaslığı bir alimi itirdi. Bəli, insanlıq belə bir pak insanı itirdi. Bəxtiyar müəllimdən sonra universitetə getməmişəm. Gedə bilmirəm. Düşünmək çətindir ki, "O yoxdur, sadəcə xatirələr var". Saatlarla söhbət etdiyim, dərin bil iyi, intellektual düşüncəsi, əhatəli nitqi, bütün insani də - yər ləri özündə ehtiva edən şəxsiyyət, eyni zamanda heç kəsə bən zəməyən zahiri davranışı, rəftarı, ilə seçilən Bəx ti yar müəl lim haqqında keçmiş zamanda da nış maq nə qədər ağırdır. Amma danışmaq məcburiyyətindəyik. Yana-yana da olsa, ağrıya-

# ƏDƏBİYYATŞÜNASLIĞIMIZIN AĞIR İTKİSİ

ağrıya da olsa danışmaq, yazmaq lazımdır. Çünki boynumuzda Bəxtiyar müəllimin haqqı var. Bizə öyrətdiyi elmə görə, bizə verdiyi həyat dərsinə, insanlıq dərsinə görə ona çox borcluyuq. Filologiya elmləri doktoru Qara Namazov "Əsl insan, əsil müəllim idi" adlı xatirəsini belə bitirir: "Bəxtiyar müəllim saf adam idi, çox yoxsul yaşadı. Amma pak yaşadı. Sənətinə bir damla da xələl gətirmədi. İçi ilə çölü eyni oldu. Buna görə də onu müəllimlər də, tələbələr də sevirdilər. Onun tabutu önündə göz yaşlarını saxlaya bilməyən tələbələr indi də gözümün önündədirlər. Bəxtiyar müəllim heç vaxt yadımızdan çıxmır. Allah rəhmət eləsin!".

Bəxtiyar müəllim haqqında çoxlu xatirələr var. Hamı bu böyük itkini yana-yana xatırlayır. Bu yazılarda hər kəs öz Bəxtiyar müəllimindən danışır. Onun haqqında yazılan ürək sözlərinin səmimi, həqiqi olduğuna heç kim şübhə etmir. Mən bu cür sözləri hələ tələbə vaxtı, Bəxtiyar müəllimin sağlığında Firuz müəllimdən çox eşitmişəm. Firuz müəllim Bəxtiyar müəllimi həqiqətən çox sevən, onunla fəxr edən həmkarı, dostu idi. Kim nə yazır-yazsın, kim nə deyir-desin, Bəxtiyar müəllim bizdən getdi, bizim ədəbiyyat dünyamızdan getdi. Getdi və gedişiylə çox şey apardı. Biz itirdik, ədəbiyyatşünaslığımız itirdi. Hələ çox illər keçəcək, Bəxtiyar müəllimin yoxluğu hamıya bilinəcək. Allah rəhmət eləsin, ruhu şad olsun!



**2022**

Sona Xəyal